# Asqılıqda İşləyən Qadının Söhbəti
**Anar**

© Anar. Seçilmiş Əsərləri. 2 cilddə. 1-ci cild
Azərbaycan Dövlət Nəşriyyatı, Bakı-1988

Bizim idarədə, ağrın alım, beş yüzə qədər işçi var. Hərənin də bir cür, bir fason paltosu var. Mod deyirsiniz, nə deyirsiniz. Amma, allaha and olsun, hamısını bircə-bircə tanıyıram. Nömrə-zad olmasa da, heç vədə birinin paltosunu başqasınınkıynən dəyişik salmaram. Da, ay bala, yeddi ildi burda işləyirəm, elə olacaq dana.

Hələ, desəm bəlkə inanmayasan, hansı paltonu harda asmağı da bilirəm. Görürsən, məsəlçün kimi ki, kimnən bir səmtdə olur, onlar elə işə  də bir gəlib gedirlər. Odu ki, onların elə paltolarını da yan-yana asıram. Hə, sözüm onda deyil… Bu əhvalat ki, danışıram, yəni əhvalat deyəndə, bir əhvalat da yoxdu.

İki-üç il bundan əvvəl, bax, bu yeri ki, görürsən, indi ora meşin palto asmışam ha, bax, həmişə o nömrəyə iki palto asırdım. Paltoların  rəngi də yadımdadı. Arvad paltosu sarıydı, özü də çox əntiqə şeydi. Kişi paltosu qaraydı. Özü də köhnə, nimdaş: qolu-zadı getmişdi.

Mən burda işləyəndən bəri bu iki paltonu bir təhvil almışam, bir qaytarmışam. Görürsən, ildə-ayda bir dəfə elə düşürdü ki, işə gəlmirlərdi. Gəlməyəndə ikisi də gəlmirdi. Elə bil azarlayanda da bir yerdə azarlayarlardı. Bilmirəm də, ay bala ər-arvaddılar yainki yar-yoldaş. Hər nəysə, mən ki, o paltoları bir dəfə də ayrı asmadım.

Hə, bir dənə də şərfləri vardı, belə ağ, yun şərflər olur e, kişi şərfləri. Hə, bax ondan bir dənəsi vardı. Həmişə onu kişi paltosunun cibində təhvil alardım. Amma soyuq olanda o şərf arvad paltosunun üstündə gələrdi.

Mən əvvəl sarı paltonu alıb altdan asardım, üstündən də qara kişi paltosunu.

Ay keçirdi, il keçirdi, bu paltolar bir gəlirdi ki, bir gəlirdi.

İstəyir işə tez gəlsinlər, istəyir gec, həmişə mən bax bu yeri onlarçün saxlayardım. Görürsən bəzi günlər heç paltoların çoxuna yer olmurdu, onlar da heç görürsən , o gün

işə çıxmayıblar. Amma mən bu yeri boş qoyurdum, bilmirəm, ay bala, nəyə görəsə o yerdən ayrı palto asmağa ürəyim gəlmirdi, qıymırdım.

Hə, bir dənə də ayrı, mixəyi kişi paltosu vardı. Onu da həmişə tək asardım. Həmişə paltonu tək verərdi, görükür adamayovuşmazdı. Bu idarədə bir tanışı, bir dostu, aşnası yoxdu ki, onunla bir yerdə gəlsin ya bir yerdə getsin. Bu mixəyi palto nədən belə yaxşı yadımda qalıb: bu palto çox təzəydi, özü də bahalı parçadandı. Amma heç vaxt asqısı olmazdı. Neçə dəfə demişdim, tikdirmirdi ki, tikdirmirdi. Axırda bir gün hövsələm çatmadı, götürüb özüm tikdim.

Nə isə, sözüm onda deyil… Günlərin bir günündə səhər işçilərin paltolarını asırdım. Yaman da basırıq idi, heç fikir vermirdim nəyi hara asıram. Gücbəlayla çatdırırdım. Aralıq bir az sakitləşəndən sonra gördüm ki, balam, deyəsən sarı paltonu həmin o mixəyi paltoynan asmışam. Dedim, hə, yəqin çaş-baş salmışam. Qaranı mixəyinin yerinə asmışam. Getdim, baxdım, gördüm yox, qara palto heç yerli-dibli yoxdu.

Səhərisi gün yenə belə, sarıynan mixəyini bir verdilər.

Üç-dörd gün elə belə keçdi, bir gün gördüm, qara paltolu da gəlib öz paltosunu uzatdı. Tək verdi, mən də ayrı asdım. Neyləyəydim, a bala, ta bir yerə üç palto asa bilməzdim ki. O gün də yaxşı yadımdadı, bir az yağış yağmışdı, elə balaca çisələyirdi. Bütün paltolar azacıq islanmışdı, amma qara paltonu elə bil suya salıb çıxarmışdılar.

Bir müddət keçdi. Bir aya kimi. Bir gün qara paltolu mənə yanaşdı, qızın paltosunu istədi. Bilirsən, bala, bizdə belə qayda var: kimi ki, hansı nömrəni verir elə həmin paltonu da alır. Lap istəyir atam oğlu, qardaşım olsun, nömrəsiz ona palto verməərəm. Həm də ki, özgəsininkini. Amma buna ürəyim gəlmədi. Qıymadım. Dinməz-söyləməz qızın sarı paltosunu ona uzatdım. Aldı, baxdı, baxdı… Sonra qaytardı. Çıxdı getdi.

Bundan sonra bir də onu görmədim.

18 dekabr 1959.

---

Veb direktor: Betti Bleyer
Mətni yığdı və veb üçün hazırladı: Ülviyyə Məmmədova
AZERİ.orga qoyuldu: oktyabr, 2003-cü il